**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**İQTİSADİYYAT İNSTİTUTU**

*Əlyazması hüququnda*

**ALLAHVERDİYEVA LEYLİ ƏLİ qızı**

# İQTİSADİYYATIN DAYANIQLI İNKİŞAFININ TƏMİN OLUNMASINDA TURİZMİN ROLUNUN ARTIRILMASI YOLLARI

**İxtisas:** 5312.01- Sahə iqtisadiyyatı

İqtisad elmləri üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın

# AVTOREFERATI

**Bakı – 2016**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyasının İqtisadiyyat İnstitutunda yerinə yetirilmişdir

**Elmi rəhbər:** iqtisad elmləri doktoru, professor
**İsa Hüseyn oğlu Alıyev**

**Rəsmi opponentlər:** iqtisad elmləri doktoru, professor
**Rüfət Məmməd oğlu Kasumov**

iqtisad üzrə fəlsəfə doktoru
**Flora Qəməndər qızı Ələsgərova**

**Aparıcı təşkilat:** Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutu

Müdafiə 18 noyabr 2016-cı il saat $14^{00}$ Azərbaycan Milli Elmlər Akademiyasının İqtisadiyyat İnstitutu nəzdindəki D.01.181 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**Ünvan:** AZ 1143, Bakı ş., H. Cavid prospekti 31, Azərbaycan Milli Elmlər Akademiyasının İqtisadiyyat İnstitutu

Dissertasiya işi ilə Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanasında tanış olmaq olar.

Avtoreferat 15 oktyabr 2016-cı il tarixində göndərilmişdir.

**D.01.181 Dissertasiya**
**Şurasının elmi katibi:**
**i.f.d., dosent** **F.Q. Musayeva**

## DİSSERTASİYANIN ÜMUMİ XARAKTERİSTİKASI

**Tədqiqatın aktuallığı.** İnsanların istirahətə, sağlamlığa olan ehtiyacı, asudə vaxtlarının artması ilə yanaşı, həyat şəraitlərinin yaxşılaşdırılması, onların dünyanın müxtəlif coğrafi resursları ilə tanış olmaq üçün can atması, digər xalqların mədəniyyət və adətlərinə maraq, son dövrlərdə dünya üzrə turist səfərlərinin artmasına və daimi xarakter almasına gətirib çıxartmışdır. Nəticədə, turizm - müasir dünya iqtisadiyyatının dinamik inkişaf edən sahələrindən birinə çevrilmişdir. Turizm biznesinin cəlbedici xüsusiyyəti ondan ibarətdir ki, buraya qoyulan kapital daha tez dövr edir və çox da böyük investisiya tələb etmir. Müasir iqtisadi şəraitdə turizm sektoru iqtisadiyyatın intensiv templərlə inkişaf edən və eyni zamanda, ölkələrin və ayrı-ayrı regionların sosial-iqtisadi inkişafına əhəmiyyətli dərəcədə təsir göstərən sahəsi kimi çıxış edir.

Turizm müəssisələrindən əlavə, turizm sahəsinə, turizm xidmətlərinin göstərilməsi prosesində dolayı yolla iştirak edən sahələrin müəssisələri də daxildir. Turizm sektoruna, turizm müəssisələrindən əlavə, turizm xidmətlərinin göstərilməsi prosesində dolayı yolla iştirak edən sahələrin müəssisələri də daxildir. Xalq istehlakı məhsullarının istehsalı, nəqliyyat və rabitə, tikinti, kənd təsərrüfatı, banklar, əyləncə sahəsi və digər iqtisadiyyat sahələri onun təsiri altına düşürlər. Əksər ölkələrdə turizm, sosial-iqtisadi inkişafın katalizatoru rolunda çıxış edərək, əhalinin məşğulluğunun təmin edilməsində və əlavə iş yerlərinin yaradılmasında, xarici ticarət balansının aktivləşməsində, ümumdaxili məhsulun formalaşmasında həlledici rol oynayır.

Yuxarıda deyilənləri nəzərə alaraq, iqtisadiyyatın dayanıqlı inkişafının təmin edilməsinə təsir edən turizmin səmərəli inkişaf yollarını müəyyən etmək məqsədəuyğun olardı. Buna, yalnız, dəqiq seçilmiş strategiya və taktika, turizm fəaliyyətinin inkişafına təsir edən amillərin düzgün proqnozlaşdırılması vasitəsi ilə nail olmaq olar.

Azərbaycanda turizm sahəsi üçün əlverişli şəraitin yaradılmasına, 2002-ci ildə ümummilli lider Heydər Əliyev tərəfindən turizmin inkişafı üzrə Dövlət Proqramının təsdiq edilməsi ilə başlanmışdır. Yüksək səmərəli və rəqabətqabiliyyətli turizm sahəsinin yaradılması məqsədi ilə, ölkədə bu gün də, turizmin inkişafı üzrə məqsədli proqramlar qəbul edilir, Ümumdünya Turizm Təşkilatının ekspertizasına, yenilikləri təminatlandıran, turizm sahəsininin inkişafını stimullaşdıran «Turizm haqqında» qanun layihəsi təqdim edilmişdir. Bu gün Azərbaycanda, dayanıqlı iqtisadi inkişafın təmin edilməsinə dəstək verən milli

iqtisadiyyat üzrə strateji yol xəritəsi çərçivəsində, ixtisaslaşdırılmış turizm prioritet istiqamətlərdən biri kimi qəbul edilir. Turizm fəaliyyətindən əldə edilən gəlirlər, ölkənin iqtisadi göstəricilərini yaxşılaşdıraraq, onun daha da çiçəklənməsini təmin edəcəklər.

**Problemin öyrənilmə səviyyəsi.** Azərbaycanda turizm sahəsinin tədqiqinə həsr edilmiş əsərlərin siyahısına, turizm potensialından istifadəni öyrənən A.A.Salmanovun və A.M.Əsədovun; Azərbaycanda turizmin dayanıqlı inkişafının problemləri və perspektivlərini tədqiq edən A.M.Əsədovun və K.N.Abdullayevin; turizmin formalaşmasını və Azərbaycanın turizm sahəsində beynəlxalq təcrübənin tətbiqi perspektivlərini tədqiq edən S.T.Yeqanlı və E.M.Hacıyevin; beynəlxalq turizm bazarını və onun inkişaf perspektivlərini araşdıran R.M.Kasumovun əsərlərini aid etmək olar. Belə əsərlərə, həmçinin, Z.R.Səlimova, Y.Q.Zeynallı, N.R.Əliyeva, İ.R.Rzayev, E,Q,Məmmədov, B.V.Qılıncov, F.Q.Abbasov, R.T.Səmədov tərəfindən aparılan Azərbaycanın turizm sahəsi üzrə tədqiqatlarını aid etmək lazımdır.

Mövzunun başlıca iqtisadi problemlərinin tədqiqinin əsasında dünya iqtisadiyyatını, onun dayanıqlı inkişafını öyrənən (Ş.Q.Hacıyev, V.İ.Kuşlin, Y.S.Slotin, A.D.Ursul, A.L.Romanoviç və s.), eləcə də, bu prosesdə dövlət idarəetməsinin rolunu tədqiq edən (Q.V.Atamançuk, N.V.Raskov və s.) tədqiqatçıların irəli sürdüyü fundamental müddəalar durur. Turizm sahəsinin nəzəri və praktiki inkişaf aspektləri A.Y.Aleksandrova, V.S.Novikov, V.Q.Qulyayev, N.İ.Kabuşkin, A.P.Duroviç, V.A.Kvartalnov, İ.V.Zorin, Ö.V.Savelyev, O.V.Tolstoquzov, A.D.Çudnovskiy, S.V.Dementyeva və başqalarının əsərlərində tədqiq edilirlər.

Son dövrlərə qədər, Azərbaycanda turizm potensialından tam həcmdə istifadə edilməməsi, və bunun nəticəsində, ölkənin sosial-iqtisadi inkişafında turizmin rolunun kifayət qədər qiymətləndirilməməsi müşahidə olunurdu. Azərbaycan Respublikası hökümətinin sosial və iqtisadi inkişafın regional (əsas) aspektlərinə diqqətinin artırılması, bu sahədə nəzəri tədqiqatların gözəçarpacaq dərəcədə artmasına səbəb olmuşdur. Müasir dövrdə Azərbaycanda, ölkə iqtisadiyyatının dayanıqlı inkişafını təmin edə biləcək turizmin fəaliyyət göstərməsi problemi yalnız son zamanlar araşdırma obyekti olmuşdur, buna görə də, onu az tədqiq olunmuş mövzulara aid etmək olar.

Yuxarıda deyilənləri rəhbər tutaraq, demək olar ki, turizm fəaliyyətinin inkişafının əsas meyllərinin üzə çıxarılması və təhlili, və

ölkə iqtisadiyyatının dayanıqlı inkişafının təmin edilməsində onun rolunun müəyyən edilməsi aktual problemdir, Azərbaycanda turizm industriyasının vəziyyətinin müəyyən edilməsi və onun sonrakı inkişaf perspektivlərinin təhlili isə - ölkənin iqtisadi tərəqqisinin təməl daşıdır.

**Tədqiqatın məqsədi və vəzifələri.** Tədqiqatın məqsədi - Azərbaycan iqtisadiyyatının dayanıqlı inkişafının nəzəri-metodoloji əsaslarının öyrənilməsi, ölkə iqtisadiyyatında turizmin rolunun qiymətləndirilməsi, turizm sektorunun rəqabətqabiliyyətinin artırılmasına təsir edən amillərin üzə çıxarılması və sosial-iqtisadi inkişafın sabit dinamikasına təhdidlərin aradan qaldırılması üzrə tədbirlərin təklif edilməsindən ibarətdir.

Qarşıya qoyulan məqsədə müvafiq olaraq, dissertasiya işində aşağıdakı vəzifələr nəzərdə tutulmuşdur:

1. turizm və iqtisadiyyatın dayanıqlı inkişafının təmin edilməsinin əsas yolları arasında qarşılıqlı əlaqələrin tədqiq edilməsinə nəzəri yanaşmaları müəyyən etmək;
2. turizm fəaliyyətinin əhəmiyyətini qeyd etmək və bu fəaliyyətin dayanıqlı inkişafa təsir edən potensial ehtiyatlarını müəyyən etmək;
3. Azərbaycanın sosial-iqtisadi inkişafında turizmin rolunu qeyd etmək;
4. Azərbaycanda turizmin inkişaf səviyyəsini qiymətləndirmək və ölkədə bu sahənin rəqabətqabiliyyətinin artırılması yollarını göstərmək;
5. investisiyaların cəlb edilməsini ölkədə turizmin inkişafında strateji məqsəd kimi əhəmiyyət daşıdığını qeyd etmək və turizmə qoyulan investisiyaların təkmilləşdirilməsi yollarını göstərmək;
6. rəqabətqabiliyyətli sahənin formalaşmasında turizmin maddi-texniki bazasının rolunu qeyd etmək və onun möhkəmlənməsi yollarını göstərmək;
7. xidmət sahəsinin vəziyyətinin iqtisadiyyatın inkişafına təsirini qiymətləndirmək və onun əsas inkişaf istiqamətlərini əsaslandırmaq.

**Dissertasiya işinin tədqiqat obyekti** - Azərbaycanın turizm sahəsidir.

**Tədqiqatın predmeti** kimi - turizm və iqtisadiyyatın dayanıqlı inkişafı arasında olan qarşılıqlı əlaqədən irəli gələn iqtisadi münasibətlər çıxış edirlər.

**Dissertasiya işinin elmi yeniliyi** ondan ibarətdir ki, burada, ilk dəfə olaraq, Azərbaycanda turizm sahəsinin kompleks təhlili, eləcə də Maykl Porterin «rəqabətqabiliyyətli romb» modelinin tətbiqi əsasında, turizm potensialının səviyyəsi müəyyən edilmiş, turizmin

rəqabətqabiliyyətliliyiəmsalı və adambaşına ÜDM arasında qarşılıqlı əlaqənin dərəcəsini müəyyən etməyə imkan verən korrelyasiya təhlili aparılmış, bu sahənin rəqabətqabiliyyətinin artmasına dəstək verən, təmin edən xarici ticarətin dövlət tənzimlənməsinin dərəcəsi və amillər qeyd edilmiş, yüksək və dayanıqlı iqtisadi inkişaf templərinin əldə edilməsində başlıca amil olan investisiya qoyuluşlarının artırılması yolları təklif edilmişdir.

Tədqiqatın nəzəri və metodoloji əsaslarını alimlərinin müasir dövrdə turizm sahəsinin öyrənilməsinə, turizm fəaliyyətinin səmərəli inkişaf yollarının işlənib hazırlanmasına, iqtisadiyyatda turizmin rolunun qiymətləndirilməsinə, turizm sferasının rəqabətqabiliyyətinin artırılmasına həsr edilmiş əsərləri təşkil edir.

Dissertasiya işində aşağıdakı tədqiqat metodlarından istifadə edilmişdir: təhlil və sintez, elmi abstraksiya, iqtisadi və statistik ümumiləşdirmələr, korrelyasiya təhlili, induktiv və deduktiv metodlar.

Tədqiqatın informasiya bazasını BMT-nın sənəd və materialları, ÜTT-nın rəsmi nəşrləri, statistik məlumatlar, hüquqi aktlar, dövlət sərəncamları, milli turizm assosiasiyasının və Azərbaycanın Mədəniyyət və Turizm Nazirliyinin materialları təşkil etmişdir. Eləcə də, ixtisaslaşdırılmış turistik nəşrlərin və İnternetin rəsmi informasiya səhifələrinin məlumatlarından da istifadə edilmişdir.

**Tədqiqatın praktiki əhəmiyyəti** ondan ibarətdir ki, tədqiqat zamanı əldə edilən əsas müddəa və nəticələr, ölkənin turizm sahəsinin rəqabətqabiliyyətinin artırılması üzrə tövsiyələr, iqtisadiyyatın dayanıqlı inkişafında turizmin rolunun artırılması üzrə təkliflər, bu sahənin strateji inkişaf konsepsiyasının işlənib hazırlanması zamanı istifadə edilə bilər. Dissertasiyada aparılan turizmin iqtisadiyyatın digər sahələrinə təsirinin araşdırılması, onun əhəmiyyətini bir daha qeyd edərək, turizm fəaliyyətinin daha səmərəli inkişaf yollarını ifadə etməyə imkan vermişdir.

Dissertasiya işinin materiallarından turizm sahəsinin müəssisələri arasında rəqabətqabiliyyətinin gücləndirilməsi, göstərilən xidmətlərin keyfiyyətinin yaxşılaşdırılması və bunun nəticəsi olaraq, onlara olan tələbin artırılması üçün istifadə etmək olar ki, bu da turizmin iqtisadiyyatın dayanıqlı inkişafına səmərəli təsirinin əsasıdır. Aparılan tədqiqat əsasında verilən təkliflər iqtisadi fənlər üzrə bir sıra kursların tədris proqramlarının yaradılmasında faydalı ola bilər.

**Tədqiqatın nəticələrinin aprobasiyası və tətbiqi.** Dissertasiyanın əsas nəticələri və müddəaları iddiaçının respublikada və xaricdə dərc

edilən məqalələrində, Azərbaycan Dövlət Pedaqoji Universitetində keçirilən elmi-nəzəri seminarlarda, «Milli iqtisadiyyatın inkişafı və səmərəliliyinin artırılması» mövzusunda Beynəlxalq elmi-praktiki konfransda (Bakı-2012), Doktorantların və gənc tədqiqatçıların XIX-cu Ümumrespublika Konfransında (Bakı-2015), Gənc tədqiqatçıların IV-cü Beynəlxalq Elmi Konfransında (Bakı-2016), Bakı Biznes Universitetində keçirilən Konfransındakı (Bakı-2016) çıxışlarında öz əksini tapmışdır.

Dissertasiyanın mövzusu üzrə respublika əhəmiyyətli və beynəlxalq nəşrlərdə 12 əsər dərc edilmişdir.

**Dissertasiyanın strukturu və həcmi.** Dissertasiya işi giriş, üç fəsil, nəticə və təkliflər, istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Tədqiqat işi 185 səhifə həcmindədir. İşdə 15 diaqram, 22 qrafik, 35 cədvəl, 2 sxem, 7 düsturdan istifadə edilmişdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

### GİRİŞ

### FƏSİL I. İQTİSADİYYATIN DAYANIQLI İNKİŞAFINDA TURİZMİN ROLUNUN ÖYRƏNİLMƏSİNİN NƏZƏRİ-METODOLOJİ ƏSASLARI

1.1 iqtisadiyyatın dayanıqlı inkişafının təmin edilməsində turizmin rolunun öyrənilməsinin nəzəri əsasları

1.2. İqtisadiyyatın dayanıqlı inkişafına turizm fəaliyyətinin təsirinin öyrənilməsinə metodoloji yanaşmalar

1.3. Dayanıqlı inkişafın tərkib elementləri və turizm fəaliyyəti arasında qarşıdıqlı əlaqə

### FƏSİL II. TURİZMİN MÜASİR VƏZİYYƏTİNİN TƏHLİLİ VƏ ONUN AZƏRBAYCAN İQTİSADİYYATININ DAYANIQLI İNKİŞAF PROSESİNDƏ QİYMƏTLƏNDİRİLMƏSİ

2.1. Azərbaycan iqtisadiyyatında turizmin inkişaf dinamikası

2.2. Turizmin inkişaf səviyyəsinin qiymətləndirilməsi

2.3. Azərbaycanın turizm sahəsinə investisiya qoyuluşlarının müasir vəziyyəti

**FƏSİL III. İQTİSADİYYATIN DAYANIQLI İNKİŞAFININ TƏMİN EDİLMƏSİNDƏ TURİZMİN ROLUNUN GÜCLƏNDİRİLMƏSİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ YOLLARI**

3.1.Azərbaycanda turizmin maddi-texniki bazasının gücləndirilməsi

3.2. Xidmət sferasının genişlənməsi şəraitində turizm sahəsinin məhsulunun əsas inkişaf yolları

3.3. Azərbaycanın xidmət sferasının dövlət tərəfindən tənzimlənməsi metodlarının təkmilləşdirilməsi

**NƏTİCƏ VƏ TƏKLİFLƏR**

**İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI**

## MÜDAFİƏYƏ TƏQDİM EDİLƏN ƏSAS MÜDDƏALAR

**1. Turizmin rəqabətqabiliyyətliliyi əmsalı və adambaşına ÜDM arasında korrelyasiya təhlilinin aparılması, turizm sahəsinin inkişafı və iqtisadiyyatın dayanıqlı inkişafının təmin edilməsi arasında qarşılıqlı əlaqənin olmasını təyin etməyə imkan vermişdir.**

İqtisadi dayanıqlıq iqtisadi sistemin davamlı, dinamik, balanslaşdırılmış inkişafını nəzərdə tutur. İqtisadiyyatın dayanıqlığının təmin edilməsi və qorunması, müxtəlif təkraristehsal rejimləri və inkişaf templərinə baxmayaraq, hər bir ölkə üçün həyati vacib məsələdir. Adambaşına düşən ÜDM-in həcmi ölkənin iqtisadi inkişaf səviyyəsini xarakterizə edən əsas göstəricilərdən olduğu üçün, işdə, dünya ölkələri üzrə turizmin rəqabətqabiliyyətliliyi əmsalı və adambaşına ÜDM arasında əlaqənin dərəcəsini müəyyən etməyə imkan verən korrelyasiya təhlili aparılmışdır. Korrelyasiya əmsalı aşağıdakı düstur üzrə hesablanır:

$$R = \frac{\Sigma(x-\bar{x})(y-\bar{y})}{\sqrt{\Sigma(x-\bar{x})^2\,\Sigma(y-\bar{y})^2}}, \qquad (1.1)$$

burada: **R** - korrelyasiya əmsalı; **x, y** isə - dəyişənlərdir.

Əmsal (-1)-dən 1-ə qədər dəyişir. Əgər əmsal (-1)-ə yaxındırsa, dəyişənlər arasında güclü əksqarşılıqlı əlaqə mövcuddur. Əmsalın 1-ə yaxınlaşması isə, çox güclü birbaşa əlaqənin mövcud olması haqqında xəbər verir. Əmsal sıfıra bərabər olarsa, əlaqə mövcud deyil[1].

2009 (şəkil 1), 2013 (şəkil 2), və 2015-ci (şəkil 3) illərdə ölkələr üzrə turizmin rəqabətqabiliyyətliliyi əmsalı və adambaşına ÜDM arasında əlaqəni araşdıraq.

---

[1]Иванов О.В. Статистика / Учебный курс для социологов и менеджеров. Часть 2. Доверительные интервалы. Проверка гипотез. Методы и их применение, -М. 2005, с.104-105




**Şəkil 1.** Dünya ölkələri üzrə turizmin rəqabətqabiliyyətliliyi əmsalı və adambaşına düşən ÜDM-in həcmi, 2009-cu il.

**Qeyd:** Qrafik, The World Economic Forum tərəfindən təqdim edilən turizmin rəqabətqabiliyyətliliyi əmsalı və adambaşına düşən ÜDM-in həcmi haqqında məlumatlar əsasında, müəllif tərəfindən tərtib edilmişdir.

Qrafikdən görünür ki, turizmin rəqabətqabiliyyətliliyi əmsalının aşağı olduğu ölkələrdə adambaşına düşən ÜDM-in həcmi əmsalın yüksək olduğu ölkələrdən daha aşağıdır. Bu göstəricilər arasında güclü birbaşa korrelyasiya əlaqəsi mövcuddur (R=0,930).




**Şəkil 2.** Dünya ölkələri üzrə turizmin rəqabətqabiliyyətliliyi əmsalı və adambaşına düşən ÜDM-in həcmi, 2013-cü il.

**Qeyd:** Qrafik, The World Economic Forum tərəfindən təqdim edilən turizmin rəqabətqabiliyyətliliyi əmsalı və adambaşına düşən ÜDM-in həcmi haqqında məlumatlar əsasında, müəllif tərəfindən tərtib edilmişdir.

2009-cu ildən 2013-ü ilə qədər Azərbaycanda adambaşına düşən ÜDM-un artım templəri (90%) turizmin rəqabətqabiliyyətliliyi əmsalının artım templərini (3,4%) əhəmiyyətli dərəcədə üstələmişdir. Gürcüstanda adambaşına ÜDM həcmi daha aşağı faizlə artsada (81%),

turizmin rəqabətqabiliyyətliliyi əmsalının artımı Azərbaycandakı artımdan daha yüksək idi (5,4%). Həmçinin, qeyd etmək lazımdır ki, Gürcüstanda, turizmin rəqabətqabiliyyətliliyi əmsalının nisbətən yüksək olmasına baxmayaraq, adambaşına düşən ÜDM həcmi aşağı olmuşdur.

Həmin dövr ərzində Türkiyədə adambaşına ÜDM həcmi 58,7% artmış, turizmin rəqabətqabiliyyətliliyi əmsalının artımı isə 5,7%-ə bərabər olmuşdur. Qrafikdə (şəkil 2) göstərilən ölkələrdə korrelyasiya əmsalı göstəricilər arasında güclü birbaşa əlaqənin mövcud olmasını göstərir (R=0,910). Turizmin rəqabətqabiliyyətliliyi əmsalının dəyişməsi nəticəsində adambaşına düşən ÜDM həcminin dəyişməsi 82,77% hallarda baş verir.




**Şəkil 3.** Dünya ölkələri üzrə turizmin rəqabətqabiliyyətliliyi əmsalı və adambaşına düşən ÜDM-in həcmi, 2015-ci il.

**Qeyd:** Qrafik, TheWorldEconomicForum tərəfindən təqdim edilən turizmin rəqabətqabiliyyətliliyi əmsalı və adambaşına düşən ÜDM-in həcmi haqqında məlumatlar əsasında, müəllif tərəfindən tərtib edilmişdir.

2015-ci ildə isə, həm inkişaf etmiş, həm də inkişaf etməkdə olan əksər ölkələrdə, o cümlədən Azərbaycanda, adambaşına ÜDM artması fonunda turizmin rəqabətqabiliyyətliliyiəmsalının cüzi azalması müşahidə edilir. Eyni zamanda, göstəricilər arasında əhəmiyyətli birbaşa qarşılıqlı əlaqə yenə də aktual olaraq qalır (R=0,826; etibarlılıq səviyyəsi - 68,22%).

Ayrı-ayrılıqda, inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr üçün göstəricilər arasında korrelyasiya təhlilinin aparılması göstərir ki, 2009-cu ildə inkişaf etməkdə olan ölkələrdə korrelyasiya əmsalı (R=0,744), inkişaf etmiş ölkələrdə olduğundan (R=0,677) daha yüksəkdir. Determinasiya əmsalı bu faktı təsdiq edir ki, turizmin rəqabətqabiliyyətliliyi əmsalının dəyişməsi inkişaf etməkdə olan və

inkişaf etmiş ölkələrdə, müvafiq olaraq 55,3% və 45,81% hallarda, adambaşına ÜDM-in dəyişməsinə gətirir. 2009-cu ildə olduğu kimi, 2013-cü ildə də, həm inkişaf etmiş, həm də inkişaf etməkdə olan ölkələrdə turizmin rəqabətqabiliyyətliliyi əmsalı və adambaşına ÜDM arasında əlaqə yüksək müsbət korrelyasiya dərəcəsinə malikdir. Belə ki, inkişaf etməkdə olan ölkələrdə korrelyasiya əmsalı (R=0,708) inkişaf etmiş ölkələrdə olduğundan (R=0,734) daha aşağıdır. İnkişaf etməkdə olan ölkələrdə adambaşına ÜDM və turizmin rəqabətqabiliyyətliliyi əmsalı arasında qarşılıqlı əlaqənin faiz ifadəsi - 50,19%, inkişaf etmiş ölkələrdə isə - 53,88%-dir.

2013-cü illə müqayisədə, 2015-ci ildə inkişaf etməkdə olan ölkələrdə korrelyasiya əmsalı azalaraq, 0,712 (etibarlılıq - 50,66%) təşkil etmişdir. Qeyd etmək lazımdır ki, inkişaf etmiş ölkələrdə korrelyasiya əmsalı əhəmiyyətli dərəcədə azalaraq, 0,456 (etibarlılıq - cəmi 20,82%) təşkil etmişdir. Yəni, inkişaf etmiş ölkələrdə turizmin rəqabətqabiliyyətliliyi əmsalı və adambaşına ÜDM arasında qarşılıqlı əlaqəni orta-müsbət kimi xarakterizə etmək olar. Bundan fərqli olaraq, inkişaf etməkdə olan ölkələrdə isə turizmin rəqabətqabiliyyətliliyi əmsalı və adambaşına ÜDM arasında qarşılıqlı əlaqəni yüksək-müsbət xarakterizə etmək olar.

Daha sonra, 2009-2015-ci illər ərzində dünya ölkələri üzrə turizmin rəqabətqabiliyyətliliyi əmsalı və adambaşına ÜDM arasında qarşılıqlı əlaqə tədqiq edilmişdir. (şəkil 4)




**Şəkil 4.** Dünya ölkələri üzrə turizmin rəqabətqabiliyyətliliyi əmsalı və adambaşına düşən ÜDM-in həcmi, 2009-2015-ci illər.

**Qeyd:** Qrafik, TheWorldEconomicForum tərəfindən təqdim edilən turizmin rəqabətqabiliyyətliliyi əmsalı və adambaşına düşən ÜDM-in həcmi haqqında məlumatlar əsasında, müəllif tərəfindən tərtib edilmişdir.

2009-2015-ci illərdə korrelyasiya əmsalı 0,907 bərabər olmuşdur. Bu, tərəfimizdən araşdırılan dünya ölkələri üzrə turizmin

rəqabətqabiliyyətliliyi əmsalı və adambaşına ÜDM arasında birbaşa qarşılıqlı əlaqənin çox güclü olduğunu göstərir. Eyni zamanda, inkişaf etmiş ölkələrdə turizmin rəqabətqabiliyyətliliyi əmsalı inkişaf etməkdə olan ölkələrdə olduğundan daha yüksəkdir. Gürcüstanda turizmin rəqabətqabiliyyətliliyi əmsalı daha yüksək olduğu halda, adambaşına ÜDM-in həcmi iki dəfə aşağıdır, Qazaxstanda isə, turizmin rəqabətqabiliyyətliliyi əmsalının daha aşağı olması şəraitində adambaşına düşən ÜDM-in həcmi Azərbaycanda olduğundan daha yüksəkdir.

Aparılmış təhlilin nəticələri aşağıdakı mülahizələri yürütməyə imkan verir:

1. araşdırılan dünya ölkələrində turizmin rəqabətqabiliyyətliliyi əmsalı və adambaşına düşən ÜDM-in həcmi arasında kifayət qədər güclü birbaşa əlaqə vardır;

2. inkişaf etmiş ölkələrdə turizmin rəqabətqabiliyyətliliyi əmsalı, inkişafda olan ölkələrdə olduğundan daha yüksəkdir;

3. 2009-2015-ci illər ərzində, əksər ölkələrdə, adambaşına düşən ÜDM-in həcminin artması şəraitində turizmin rəqabətqabiliyyətliliyi əmsalının bir qədər azalması müşahidə edilsə də, göstəricilər arasında əhəmiyyətli birbaşa əlaqə qalmaqdadır;

4. 2015-ci ildə inkişaf etmiş ölkələrdə korrelyasiya əmsalı, inkişaf etməkdə olan ölkələrə nisbətən, daha aşağı idi. Bu onu göstərir ki, inkişaf etmiş ölkələrdən fərqli olaraq, inkişaf etməkdə olan ölkələrdə turizmin rəqabətqabiliyyətliliyi əmsalının dəyişməsi adambaşına ÜDM-in həcminin dəyişməsinə daha çox hallarda gətirib çıxarır (50,66%-ə qarşı - 20,82%).

**2. İqtisadiyyatın solluğu (sağlığı) indeksinin tərkibinə daxil olan xarici ticarət subindeksinin turizmin rəqabətqabiliyyətliliyi əmsalı arasında qarşılıqlı əlaqənin təhlili nəticəsində, turizm sahəsinin inkişafında xarici ticarətin dövlət tənzimlənməsinin rolu müəyyən edilmişdir.**

Ölkənin iqtisadi inkişafını təmin edə bilən səmərəli, rəqabətqabiliyyətli turizm sahəsinin formalaşmasında, onun yüksək və dayanıqlı inkişaf templərinə nail olmasında dövlət tənzimlənməsinə mühüm rol ayrılır. Xarici ticarətin dövlət tərəfindən tənzimlənməsi turizm fəaliyyətinə də müəyyən təsir göstərir. Buna görə də, ölkədə turizm sahəsinin inkişaf səviyyəsi dövlətin hansı (proteksionist və ya liberal) siyasət aparmasından asılıdır. Bunların arasında qarşılıqlı əlaqənin xarakterini müəyyən etmək üçün, turizmin

rəqabətqabiliyyətliliyi əmsalından və iqtisadiyyatın solluğu (sağlığı) indeksinə daxil olan xarici ticarət subindeksindən (XTi) istifadə edək[1]. (şəkil 5)




**Şəkil 5.** Dünya ölkələri üzrə xarici ticarət subindeksi və turizmin rəqabətqabiliyyətliliyi əmsalı, 2015-ci il.

**Qeyd:** Qrafik, The World Economic Forum tərəfindən təqdim edilən turizmin rəqabətqabiliyyətliliyi əmsalı haqqında məlumatlar və AMEA İqtisadiyyat İnstitututərəfindənişlənilmişXarici Ticarət subindeksiəsasında, müəllif tərəfindən tərtib edilmişdir.

Qrafikdən göründüyü kimi, turizmin rəqabətqabiliyyətliliyi əmsalının 4,6-dan yuxarı olan dəyəri nisbətən daha çox liberal xarici ticarətə malik olan ölkələrdə müşahidə olunur (xarici ticarət subindeksi 0,26-dan yuxarı deyil). Eyni zamanda, xarici ticarətin liberallaşması heç də hər zaman turizm sahəsinin rəqabətqabiliyyətliliyi səviyyəsinin artmasına gətirib çıxartmır. Görünür ki, bu da, digər amillərin təsiri ilə bağlıdır.

**3. Azərbaycan Respublikasında turizm kompleksinin fəaliyyəti və inkişafı üçün səmərəli şəraitin mövcud olması qeyd edilmişdir. Ölkənin iqtisadi çiçəklənməsinin təmin edilməsi nöqteyi nəzərindən, sonrakı inkişafı daha məqsədəuyğun olan turizm növləri göstərilmişdir.**

Əminliklə demək olar ki, turizm sahəsi bu gün Azərbaycan iqtisadiyyatının ən prioritet sahələrindən biridir. (şəkil 6)

[1]Müzəffərli N. İqtisadiyyatın sosialyönlüyü sağçı və solçu sistemlərdə / Bakı, Şərq-Qərb Nəşriyyat Evi, 2014, səh.172




**Şəkil 6.**Turizmin inkişafının prioritetliyi və onun dayanıqlılığı (2013-2014–cü illər)
**Mənbə:** UNWTO Tourism Highlights, 2015, 422, 442 pp.

Qrafikdən göründüyü kimi, Fransada və Azərbaycanda bu sahə, əksər tədqiq edilən ölkələrdən daha prioritet (5,8 ball), lakin İspaniyadan (6,4), Yunanıstandan (6,1), Gürcüstandan (5,9) daha az prioritetli sayıla bilər. Bizim respublikamızda turizm sahəsi (4,5 ball) Gürcüstandan (4,3), Rusiyadan (3,8), İtaliyadan (3,1), Ermənistandan (3,7) və digər ölkələrdən daha dayanıqlı, lakin Turkiyədə (4,7), İspaniya (4,8) və Fransada (4,8) olduğundan bir qədər az dayanıqlıdır.

M.Porterin «rəqabətqabiliyyətli romb»[1] modelinə əsaslanaraq, Azərbaycan Respublikasında turizm kompleksinin inkişaf və fəaliyyət etmə şəraitini aşağıdakı kimi xarakterizə etmək olar: ölkədə turistlərin maraqlarına səbəb ola biləcək zəngin təbii-rekreasion resurslar, mineral bulaqlar, arxeoloji, tarixi-memarlıq abidələri vardır. Bunlarla yanaşı, Dövlət Statistika Komitəsinin məlumatlarına görə, turizm sahəsində məşğul olan işçilərin sayında da müsbət meyllər qeyd edilir: 2008-2014-cü illər ərzində turizm fəaliyyəti ilə məşğul olan işçilərin sayı 52,8% artaraq, 1794 nəfər təşkil etmişdir. Qeyri-dövlət turizm müəssisələrində məşğul olanların sayı daha çoxdur ki, bu da həmin sahədə rəqabət şəraitinin mövcud olmasını təsdiqləyir. 2014-cü ildə Respublikada 218 turizm müəssisəsi fəaliyyət göstərirdi.Regionlara investisiya cəlbolunmalarının həcminin artması müşahidə olunur.Onların əsas hissəsi –daxili investisiyalardır.Yerləşdirmə xidmətlərinin

[1]Портер М. Конкуренция: Пер. с англ. –М.: Издательский дом «Вильямс», 2005, с. 220

(mehmanxana) həcmində də müsbət meyllər vardır. 2014-cü ildə bu xidmətlərin həcmi 5,7% artaraq, 181047,3 min manata çatmışdır.[1]

2010-cu ildə Azərbaycanda turizmdən əldə edilən gəlir 657 mln.dollar olmuşdur. 2011-ci ildə bu göstəricinin təxminən 2 dəfə artması müşahidə edilmişdir. 2011-ci ildən 2014-cü ilə qədər turizm sahəsindən əldə edilən gəlirin həcmi 89% artaraq, 2432,0 mln. dollar təşkil etmişdir. [2]

İldən-ilə Azərbaycana əyləncə məqsədi ilə daha çox xarici turist gəlir. 2009-cu ildən onların sayı 20,9% artaraq, 2014-cü ildə 709900 nəfər təşkil etmişdir. 2012-2014-ci illər ərzində qohumlarını və dostlarını ziyarət edən turistlərin sayı 80,7% artaraq, 677100 nəfərə çatmışdır. 2009-2014-ci illər ərzində Azərbaycana dini məqsədlərlə gəlmiş ziyarətçilərin sayı iki dəfədən çox artaraq, 13700 nəfər təşkil etmişdir.Müalicəvi turizm üzrə göstərici dörd dəfədən də çox artmışdır (46300 nəfər). Ölkədə işgüzar turizm də (ingilis dilində MİCE - Meetings, Incentives, Conferences, Exhibitions) kifayət qədə inkişaf edir (artım - 76,4%) və bu da xüsusi maraq kəsb edir.[3]

2010 – 2014-cü illər ərzində işgüzar məqsədlərlə gəlmiş və Bakı şəhərində yerləşdirilmiş turistlərin sayı 50,7% artmışdır. Dincəlmək məqsədi ilə paytaxtımıza gələn xarici turistlərin sayı 3 dəfədən də çox (113844 nəfər), müalicə məqsədi ilə isə 2 dəfə (36240 nəfər) artsa da (bu həmin turizm növlərinə göstərilən qayğının olmasından xəbər verir), məhz işgüzar (MİCE) turizm daha çox inkişaf etmişdir.[4]

Dünya təcrübəsi göstərir ki, ölkədə bu növ turizmin göstəricilərini daha da artırmaq üçün otellərdə xüsusiləşdirilmiş MİCE proqramından istifadə etmək çox vacibdir.Bu proqrama əsasən, hər bir tədbir təşkilatçısına (sifarişçiyə) ən azı bir mütəxəssisin təhkim edilməsi və fərdi yanaşma təmin olunur.Ölkənin müxtəlif turizm marşrutları və istiqamətləri üzrə güzəştli turların verilməsi MİCE- turizmin təşkili zamanı stimullaşdırıcı effekt verir.

---

[1]Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi: Azərbaycanda turizm / Statistik məcmuə, Bakı, 2015, səh.95

[2]UNWTO Tourism Highlights, 2013, p. 8-11; UNWTO Tourism Highlights, 2015, p. 8-11

[3]Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi: Azərbaycanda turizm / Statistik məcmuə, Bakı, 2015, səh. 37

[4]Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi: Azərbaycanda turizm / Statistik məcmuə, Bakı, 2015, səh.148

Bakı şəhərində işgüzar turizmin inkişafının bir sıra üstünlükləri var: xarici vətəndaşları cəlb edə biləcək lazımi infrastruktur var; turizmin bu növü digər növlərə nisbətən, daha stabildir; xarici iqtisadi əlaqələri genişləndirməyə şərait yaradır ki, bu da ölkə iqtisadiyyatının dayanıqlılığını təmin etməyə imkan verəcəkdir.

2014-cü ilin statistik məlumatları, ümumi turistlərin sayında, Azərbaycana sağlamlıq-müalicə məqsədi ilə gələn turistlərin azlıq təşkil etdiyini göstərir (2%). Beləliklə, Azərbaycanda müalicəvi turizm göstəricilərinin hələ bir o qədər də yüksək ölmamasına baxmayaraq, turizmin bu növünün inkişafı üçün ölkədə kifayət qədər geniş imkanların olmasını qeyd etmək lazımdır.Müalicə-sağlamlıq turizmin inkişafı üçün, Naxçıvan şəhərinin yaxınlığında, Duzdağda yerləşən fizio-terapevtik xəstəxana böyük əhəmiyyət kəsb edir. Naftalan nefti özünün müalicəvi xüsusiyyətləri ilə fərqlənir və sümük-əzələ, mədə-bağırsaq, qan dövranı, dəri xəstəlikləri və s. xəstəliklərin müalicəsi üçün istifadə edilir. Ermənilər tərəfindən işğal edilən ərazilərdə «Şuşa» və «İstisu» sanatoriyaları yerləşir. Göstərdiyimiz bu müalicə ocaqlarından əlavə, Azərbaycan bir çox mineral sularla, müalicəvi palçıq mənbələri ilə və digər təbii resurslarla zəngindir.Onlardan istifadə turist axınını artırmağa imkan verəcək və bununla da ölkənin dayanıqlı iqtisadi inkişafını təmin edəcəkdir.Bu məqsədlə, müvafiq infrastrukturun inkişaf etdirilməsi, işçi heyətinin peşəkarlıq səviyyəsinin artırılması, bu günə təqdim edilən xidmətlərin keyfiyyətinin yaxşılaşdırılması vacibdir. Televiziyada, sosial şəbəkələrdə marketinq kampaniyalarının aparılması ölkədə müalicəvi-sağlamlıq turizminin inkişafına stimullaşdırıcı təsir göstərəcəkdir. Marketinq kampaniyalarına, xarici turistlərin sayından (məsələn, əldə edilən ikinci turpaketə 15 faizlik endirim) və yaxud tur günlərinin sayından asılı olaraq, endirimlərin tətbiq edilməsini aid etmək olar.

Ayrı-ayrı ölkələr (Azərbaycan, Gürcüstan, İspaniya) üzrə əhalinin adambaşına düşən ÜDM və turizmin rəqabətqabiliyyətliliyi əmsalı (son illərdə Azərbaycanda və Gürcüstanda turizmin rəqabətqabiliyyətliliyi əmsalının azalması müşahidə edilir) arasında qarşılıqlı əlaqəni araşdıranda, biz deyə bilərik ki, Azərbaycanda və Gürcüstanda korrelyasiya əmsalı mənfidir (müvafiq olaraq,  -0,4051 və -0,38026). Bu onu göstərir ki, dəyişənlər arasında qarşılıqlı əlaqə orta mənfidir, yəni onların birinin artımı digərinin azalmasına səbəb olur və, əksinə. İspaniyada əlaqə çox zəif müsbət kimi xarakterizə edilir (0,009319), yəni turizmin rəqabətqabiliyyətliliyi əmsalının dəyişməsi adambaşına düşən ÜDM-in həcminə praktiki olaraq heç bir təsir göstərmir.

Yuxarıda göstərilən tədqiqatlardan belə nəticəyə gəlmək olar ki, əldə edilən nailiyyətlərə baxmayaraq, turizmin rəqabətqabiliyyətliliyi əmsalı və adambaşına düşən ÜDM arasında mövcud olan mənfi əlaqə ölkədə turizm sahəsinin səviyyəsinin qaldırılması üzrə işlərin aktivləşdirilməsinə və turizm hesabına büdcənin əsas gəlir hissəsinin artırılmasına ehtiyac olduğunu göstərir.

**4. Turizm sahəsində mövcud olan və onların aradan qaldırılması nəticəsində iqtisadi inkişafın dayanıqlılığı təmin olunan amillər üzə çıxarılmışdır.**

Ölkədə müəyyən məhdudiyyətlər mövcuddur ki, onların aradan qaldırılması turizmin müxtəlif növlərini və formalarını inkişaf etdirməyə imkan yaradacaqdır:

-Azərbaycanın ermənilər tərəfindən işğal edilmiş ərazilərində, turizmin inkişafı üçün böyük dəyər kəsb edən çoxlu sayda tarixi mədəniyyət abidələri mövcuddur;

- respublikada, əksər turistlər üçün daha əlverişli olan, 2- və 3-ulduzlu otellərin çatışmaması;
- otellərdə qiymətlərin yüksək olması;
- xarici vətəndaşların ölkəyə gəlmələri üçün elektron vizaların əldə edilməsi sisteminin kifayət qədər asan olmaması;
- daha yüksək gəlir əldə etmək istəyən sahibkarlar tərəfindən qiymətlərin qaldırılması;
- turizm sahəsində məşğul olan müəssisə və şəxslərin kreditləşdirilməsi üçün mövcud olan kredit sisteminin kifayət qədər inkişaf etməməsi;
- xüsusilə də regionlarda, əldə edilmiş mallara və göstərilən xidmətlərə görə nağdsız yolla ödənişlərin aparılması imkanlarının, həmçinin valyuta mübadiləsi məntəqələrinin məhdud olması;
- ölkənin regionlarında göstərilən turist xidmətlərinin keyfiyyətinin aşağı olması.

Bu məhdudiyyətlərin aradan qaldırılması üzrə müvafiq tədbirlərin qəbul edilməsi ölkə iqtisadiyyatının dayanıqlı inkişafının təmin edilməsinə dəstək verəcəkdir.

**5. Turizm multiplikatorunun hesablanması və Azərbaycanda turizm fəaliyyətindən əldə edilən multiplikativ effektin artırılmasının münasib yolları təklif edilmişdir.**

Turizmin iqtisadiyyatın bir çox sahələri ilə sıx əlaqədə olmasını nəzərə alaraq, demək olar ki, o, ölkənin iqtisadi inkişafına kifayət qədər dəstək verə bilər. Dissertasiya işində Azərbaycana gələn bir turistin xərclərindən əldə edilən multiplikativ effekt hesablanmışdır (turistik

multiplikatorun orta dəyəri 2,93-ə bərabərdir). Bunun nəticəsində biz belə bir məlumatı əldə etmişdik ki, Azərbaycanda bir turistin 592 manat həcmində xərcləri ölkə büdcəsinə ildə 2385 manat gəlir verəcək.Həmçinin, növbəti illər üçün Azərbaycanda turizmin inkişaf proqnozu verilmişdir. (Cədvəl 1)

**Cədvəl 1. Turizmin proqnozlaşdırılan göstəriciləri**

| **İllər** | **Turistlərin ümumisayı (minnəfər)** | **Turistlərin orta xərcləri (man)** | **Mult. effektnəzərə alınmaqla, puldaxilolmaları (mln. manat)** |
|---|---|---|---|
| 2015 | 1595,0 | 429 | 2 004,9 |
| 2016 | 1673,9 | 449 | 2 202,1 |
| 2017 | 1769,4 | 465 | 2 410,7 |
| 2018 | 1839,3 | 482 | 2 597,6 |
| 2019 | 1879,0 | 482 | 2 653,6 |
| 2020 | 1863,7 | 486 | 2 653,9 |

**Qeyd:** Proqnoz müəllif tərəfindən, Azərbaycanın Dövlət Statistika Komitəsinin məlumatları əsasında tərtib edilmişdir

Turizmin iqtisadiyyata təsirinin qiymətləndirilməsi aşağıdakıları qeyd etməyə imkan verir: turistlərin sayında müsbət meyllər vardır; ölkə iqtisadiyyatına turizmdən gələn məcmu pul daxil olmaları artmışdır ki, bu da turizmlə əlaqəli olan sahələrin inkişaf etdirilməsinə, yeni iş yerlərinin açılmasına, əhalinin gəlirlərinin artmasına səbəb olur; ölkə iqtisadiyyatına turizmin multiplikativ effektinin proqnozlaşdırılması imkanları yaranmışdır ki, bu da turizm sahəsinin dəqiq inkişaf istiqamətlərini proqnozlaşdırmağa imkan verərək, Azərbaycan iqtisadiyyatının daha yüksək səviyyəyə qalxmasına səbəb olacaqdır.

Ölkədə turizmdən əldə edilən multiplikativ effektin artırılması məqsədi ilə, aşağıdakı tədbirlərin həyata keçirilməsi təklif edilmişdir: ümumilikdə iqtisadiyyatın yüksək inkişaf səviyyəsinin təmin edilməsi; turizm sahəsinin inkişaf etdirilməsi;turizm resurslarının qorunmasının dəstəklənməsi; dövlət siyasətinin ölkə iqtisadiyyatına turizmdən gələn pul daxilolmalarının stimullaşdırılmasına istiqamətləndirilməsi; milli əmtəələrin və malların istehsalının artırılması; ölkədə əlverişli investisiya şəraitinin yaradılması.

**6. Perspektiv gələcəkdə Azərbaycanın turizm potensialının artırılması məqsədi ilə, turizm sektoruna xarici investorlar**

**tərəfindən birbaşa investisiya qoyuluşlarının artırılmasının səmərəli yolları müəyyən edilmişdir.**

Yüksək investisiya cəlbediciliyi – yüksək və dayanıqlı sosial-iqtisadi artım templərinə nail olunmasına təsir edən və reqionların rəqabətqabiliyyətlilik statusu əldə etməsini dəstəkləyən əsas amildir. İnvestisiya qoyuluşlarının səmərəliliyinin təmin edilməsi, turizm sahəsinin investisiya proseslərinin idarəedilməsi sisteminin işlənib hazırlanması zamanı əsas prioritet olmalıdır. Dövlət investisiya siyasəti ərazilərin, investisiya prosesində iştirak edən infrastrukturun potensialına; ərazilərdə baş verən investisiya proseslərinin daha da inkişaf etdirilməsinə və dərinləşməsinə; mövcud investisiya qanunvericiliyinin təkmilləşdirilməsinə; büdcə investisiyalarının daha səmərəli istifadə edilməsinə; investorlar üçün əlverişli şəraitin yaradılmasına; regionların informasiya infrastrukturunun inkişafının təmin edilməsinə yönəldilməlidir.

Beləliklə, dövlət investisiya siyasəti, regionlarda əlverişli sosial-iqtisadi şəraitin yaradılmasına, turizm şirkətlərinin gəlirliliyinin təmin edilməsinə, dövlətin xarici-iqtisadi fəaliyyət balansının təmin edilməsinə, əhalinin həyat keyfiyyətinin yaxşılaşdırılmasına ehtiyac olduğunu nəzərə almalıdır.

Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən, 2009-cu ildə Azərbaycanın turizm sənayesinə qoyulan investisiyaların həcmi 527,8 mln. manat, 2010-cu ildə – 949,2 mln. manat, 2011-ci ildə isə – 1407,8 mln. manat olmuşdur. 2012-ciildə turizmə aid olan sahələrə 1478,2 mln. manat investisiya yönəldilmişdir. 2013-cü ildə vəsaitlərin 1371,0 mln. manata qədər azalması müşahidə edilmişdir, 2014-cü ildə isə, turizm sənayesinə qoyulan investisiyalar 61% artaraq, 2204,0 mln. manat təşkil etmişdir.[1]

Azərbaycanda əlverişli vergiqoyma şərtləri yaradılır. Bir çox ölkələrlə investisiyaların ikitərəfli qorunması, ikili vergitutmanın aradan qaldırılması haqqında müqavilələr bağlanmışdır. 2002-ci ildə ümummilli lider Heydər Əliyev tərəfindən imzalanan dövlət büdcəsinin təsdiq edilməsi haqqında sərəncamda, iqtisadi inkişaf səviyyəsi aşağı olan regionlarda «vergitətillərinin» tətbiqedilməsi ehtimalı nəzərdə tutulmuşdur.

---

[1]Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi: Azərbaycanda turizm / Statistik məcmuə, Bakı, 2015, səh. 32

Prezident İlham Əliyevin sərəncamı əsasında respublikada xarici investisiyalar üçün əlverişli şərait yaradılmışdır: sahibkarlıq gəlirinin 50 %-nin 7 il müddətinə vergilərdən azad edilməsi; sahibkarlar tərəfindən idxa ledilən texnoloji avadanlıq və qurğuların 7 il müddətinə ƏDV və gömrük rüsumundan azad edilməsi; torpağa, mülkiyyətə görə vergi ödənişindən 7 il müddətinə azad edilməsi.[1]

Bu gün Azərbaycanda, xarici investorların diqqətini cəlb etmək üçün məqsədyönlü tədbirlər həyata keçirilir, xarici telekanallarda Azərbaycan Respublikasının turizm potensialı ilə tanış edən reklam çarxları yayımlanır. Qeyd etmək lazımdır ki, turizm sahəsinə xarici investisiyaların cəlb edilməsi Azərbaycan Respublikasının iqtisadi inkişaf strategiyasının tərkib hissəsidir.

**Tədqiqatın əsas müddəa və nəticələri aşağıdakı nəşrlərdə öz əksini tapmışdır:**

1.Аллахвердиева Л.А., Информационные технологии в международном регулировании туристической деятельности, журнал «Теоретические и прикладные проблемы сервиса», Moskva ş., ISSN 1815-218X, №2(35)2010, 61-63səh.

2.Аллахвердиева Л.А., Новый этап развития туризма в Азербайджане, «Elmi əsərlər» AMEA İqtisadiyyat İnstitutu, Bakı ş., İSBN-978-9952-454-24-6, №2 2012, 345-350 səh.

3.Аллахвердиева Л.А., Основные направления туристической деятельности в Азербайджане, «Xəbərlər» AMEA İqtisadiyyat İnstitutu, Bakı ş., ISSN-0321-1630, №4 2012, 179-183 səh.

4.Аллахвердиева Л.А., Роль туризма в экономике современного Азербайджана, «Milli iqtisadiyyatın inkişafı və səmərəliliyinin yüksəldilməsi» beynəlxalq elmi- praktik konfransı, Bakı ş., 2012, 932-935 səh.

5.Аллахвердиева Л.А., Развитие туристического бизнеса в Азербайджане, научно- теоретический журнал «Фундаментальные и прикладные исследования кооперативного сектора экономики», Moskva ş., ISSN 2076-9288, №4, 2012, 59-62səh.

6.Алыев И.Г., Аллахвердиева Л.А., Инвестиционные вложения, как движущий фактор развития туристической отрасли Азербайджана, «Международный журнал прикладных и

[1]http://www.trend.az/business/economy/2523300.html (müraciət tarixi 22.07.2016) Azərbaycanda, investisiyaların təşviqi üçün tamamilə yeni mühit yaradılmışdır: [Elektron resurs]// Trend News Agency. cop. 2016

фундаментальных исследований» Moskva ş., ISSN 1996-3955, №2 2014, 83-86 səh.

7.Алыев И.Г., Аллахвердиева Л.А., Роль туризма в экономике стран «Фундаментальные и прикладные исследования кооперативного сектора экономики» Moskva ş., ISSN 2076-9288, № 1 2014, 94-98səh.

8.Аллахвердиева Л.А., Роль государственного регулирования в становлении туристической отрасли Азербайджана, Doktorantların və gənc tədqiqatçıların XIX Respublika elmi konfransı, Bakı ş., 2015, 189- 191 səh.

9. Асадов А.М., Аллахвердиева Л.А., Значимость внедрения современных информационно-коммуникационных технологий в предприятия туристической отрасли, «Международный журнал прикладных и фундаментальных исследований»,Moskva ş., ISSN 1996-3955, №12(1) 2015, 121-125səh.

10.Аллахвердиева Л.А., Влияние международного сотрудничества на развитие туристической отрасли Азербайджана, «Elmi əsərlər» AMEA İqtisadiyyat İnstitutu, Bakı ş., İSBN-978-9952-454-32-1, №6 2015, 82-87 səh.

11.Аллахвердиева Л.А., Планирование материально-технической базы туризма, как важный фактор оказания высококачественных туристических услуг, Gənc Tədqiqatçıların IV Beynəlxalq elmi konfransı, Qafqaz Universiteti, 2016, 526- 528 səh.

12. Аллахвердиева Л.А., Взаимосвязь индекса конкурентоспособности туризма с экономическим развитием стран и государственным регулированием внешней торговли, «Elmi əsərlər» AMEA İqtisadiyyat İnstitutu, Bakı ş., İSBN-978-9952-454-32-1, №2 2016, 127-134 səh.

**Аллахвердиева Лейли Али кызы**

# Пути увеличения роли туризма в обеспечении устойчивого развития экономики

## РЕЗЮМЕ

Представленная диссертация посвящена исследованию путей увеличения роли туризма в обеспечении устойчивого развития экономики.

В диссертации на основании комплексного анализа состояния туристической отрасли в Азербайджане, а также применения модели «конкурентного ромба» Майкла Портера определен уровень туристического потенциала в Азербайджанской Республике.

В результате проведения корреляционного анализа между индексом конкурентоспособности туризма и ВВП на душу населения установлена взаимосвязь между развитием туристической отрасли и устойчивым развитием экономики. Определена роль государственного регулирования внешней торговли в развитии туристической отрасли.

Проведена оценка косвенного влияния туризма на экономику Азербайджана. Спрогнозирован мультипликативный эффект от туристической отрасли на экономику страны на последующие годы. Предложены пути увеличения мультипликативного эффекта от туризма в стране.

Выявлены факторы, препятствующие туристической отрасли обеспечить устойчивость экономического развития. Выделены виды туризма, дальнейшее развитие которых, с точки зрения обеспечения экономического процветания страны, является наиболее целесообразным.

**Allakhverdiyeva Leyli Ali**

# The ways to increase the role of tourism in providing the sustainable development of economy

## SUMMARY

Presented dissertation is devoted to research the ways of increasing the role of tourism in providing the sustainable development of economy.

Based on a comprehensive analysis of the condition of tourism industry in Azerbaijan and application of the model of "competitive rhombus" of Michael Porter, the level of tourism potential in Azerbaijan Republic is defined in the dissertation.

As a result of the correlation analysis between the competitivness index of tourism and GDP per capita, the interrelation between the development of tourism sector and the sustainable development of economy was set. The role of the public regulation of external trade in the development of tourism sector is determined.

The indirect effect of the tourism on the economy of Azerbaijan is estimated. The multiplier effect of the tourism sector on the country's economy for the future years is predicted. The ways of increasing the multiplier effect of tourism in the country are proposed.

The factors impeding tourism sector to achieve sustainability of economic development are identified. The forms of tourism further development of which in terms of the economic prosperity is the most appropriate are noted.

**AMEA-nın mətbəəsində çap olunub**

**Tiraj-100**

**ИНСТИТУТ ЭКОНОМИКИ**

*На правах рукописи*

**АЛЛАХВЕРДИЕВА ЛЕЙЛИ АЛИ кызы**

# ПУТИ УВЕЛИЧЕНИЯ РОЛИ ТУРИЗМА В ОБЕСПЕЧЕНИИ УСТОЙЧИВОГО РАЗВИТИЯ ЭКОНОМИКИ

**Специальность:** 53.12.01- Отраслевая экономика

# АВТОРЕФЕРАТ

диссертации на соискание ученой степени
доктора философии по экономике

**Баку – 2016**